# 74-cü Beynəlxalq Astronavtika Konqresi sosial mediada trend olub

Azərbaycanın evsahibliyi etdiyi 74-cü Beynəlxalq Astronavtika Konqresi dünya ictimaiyyətinin diqqətindədir.

Bu barədə AZƏRTAC-a Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib.

ABŞ-nin sosial şəbəkə monitorinqi və təhlili üzrə aparıcı proqramı "Talkwaker"in hesablamasına əsasən, tədbir #IAC2023 həştəqi ilə sosial media platformalarında trendə çevrilib.

Konqres həmçinin sosial şəbəkədə "top tədbirlər" siyahısına liderlik edir.

Xatırladaq ki, oktyabrın 2-də Azərbaycanda 74-cü Beynəlxalq Astronavtika Konqresi işə başlayıb. Bu nüfuzlu tədbirə Bakı ilk dəfə Ulu Öndər Heydər Əliyevin ölkəyə birinci rəhbərliyi dövründə - 1973-cü ildə evsahibliyi edib. 50 ildən sonra konqres yenidən Azərbaycanda keçirilir.

136 ölkədən 5300-dən çox nümayəndənin iştirak etdiyi beynəlxalq tədbir oktyabrın 6-dək davam edəcək.

---

Azərbaycan. - 2023.- 4 oktyabr.- S.5.